# TuranBank enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsi və marketing konsepsiyası

# STRATEGİYA

Bakı, Azərbaycan

## 1. Əsas müddəalar

1.1. Bu sənəd TuranBank ASC-nin (bundan sonra Bank adlandırılacaq) strateji planı əsasında hazırlanmış və Bankın enerji səmərəliliyi üzrə layihələrinin maliyyələşdirilməsi (bundan sonra strategiya adlandırılacaq) strategiyasını özündə əks etdirir.

1.2. Strategiyanın məqsədi öz müştərilərinin enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsini prioritetləşdirməklə ətraf mühitin mühafizəsinə töhvə verməkdir.

1.3. Strategiya ətraf mühitin mühafizəsi məsələsinə Bankın baxışını onun müştəri və biznes tərəfdaşlarına təqdim etmək məqsədilə müstəqil sənəd kimi təsdiq olunmuşdur.

## 2. Enerji Səmərəlilyi layihələrinin maliyyələşdirilməsi üzrə strategiya

2.1. Bankın kreditləşmə üçün münasib müştəriləri KOS və korporativ müştərilərdir.

2.2. Əsas hədəf sektorları özündə istehsal və emal sənayesi, kənd təsərrüfatı və aqrobiznes, nəqliyyat və ticarəti ehtiva edəcəkdir.

2.3 Enerji Səmərəliliyi kreditləşməsinə enerji səmərəliliyinin sənaye prosesləri və sistemləri və kommersiya binaları, o cümlədən avadanlığın əvəzlənməsi, inteqrasiyalı bərpa olunan enerji komponentlərinin yaradılması və sair üçün investisiya kreditləri daxildir.

2.4 İlkin məhsul kimi müəyyən edilmiş KOS hədəf qrupları və korporativ müştərilər üçün 7 illik müddətədək verilən enerji səmərəliliyi biznes kreditləri olacaqdır.

2.5 Uyğun investisiyalar üçün ən azı 20%-lik enerji qənaəti və/və ya tullantıların azaldılması göstərməlidir.

2.6 Cəlb olunan vəsaitlərin şərtlərinə əsasən enerji səmərəliliyi layihələri standart və qeyri-standart şəkildə ölçülən layihələrə bölünürlər. Standart şəkildə ölçülən layihələrin texniki təhlili Bankın ön ofisinin kredit işçiləri tərəfindən, qeyri-standart şəkildə ölçülən layihələrin texniki təhlili isə professional mühəndislər/şirkətlər tərəfindən icra edilir.

2.7 Enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsi Bankın kredit siyasəti və kredit prosedurlarına uyğun olaraq həyata keçirilməldir.

## 3. Marketinq konsepsiyası

3.1. Bankın enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsi üzrə marketinq konsepsiyası "Yaşıl Bankçılıq" ticarət nişanını formalaşdırmaqdan və onu həm borcalan, həm də tərəfdaşları üçün "ilk seçim bankı" etməkdən ibarətdir.

3.2. Bank enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsi üzrə aşağıdakı marketinq alətlərindən istifadə edir:

3.2.1. Daxil olan kredit arayışlarının nəzərdən keçirilməsi

3.2.2. İstifadə edilməmiş enerji səmərəliliyi potensialına uyğun olaraq mövcud müştəri portfelinin davamlı nəzərdən keçirilməsi

3.2.3. Qabaqcadan müəyyən edilmiş (alt)-sektorlarda və hədəf müştəriləri üçün birbaşa məktub kampanyaları, o cümlədən sektor vərəqələri/mövzu üzrə araşdırmalar, texniki məlumat və invrestisiyanın kommersiya faydalarının ilkin hesablamalar kimi ünvanlı marketing yanaşması. Məktublar göndərdikdən sonra telefon zəngləri və əraziyə səfərlər;

3.2.4. Avadanlıq tədarükçüləri, təchizatçılar, quraşdırıcılar, biznes birlikləri ilə sahə mütəxəssisləri kimi tərəfdaşlığın həyata keçirilməsi;

3.2.5. Bankın Azərbaycan və sosial medianın "Yaşıl Bankıçılıq" adlı sub internet səhifəsi və sosial media vasitəsilə enerji səmərəliliyi kreditlərinin təşviqi faydaları;

3.2.6. Enerji səmərəliliyi qənaəti və s. barədə maariflənd irmə kampaniyaları.